www.525.az Facebook.com/525-ci qəzet - 525.az İnstagram.com/525ciqezet

# *Şahin Musaoğlu:* "60 yaş ömrün çox ciddi, sanballı mərhələsidir"

***İyulun 11-də "İgid əsgər, möhkəm dayan", "Cənab leytenant" kimi balacadan böyüyə hər kəsin dilinin əzbərinə çevrilmiş bir çox vətənpərvərlik mahnılarının müəllifi Şahin Musaoğlunun 60 yaşı tamam olur.***

***İxtisasca həkim olan Şahin Musaoğlu Azərbaycan Yazıçılar Birliyinin üzvü, bu qurumun Hərbi Vətənpərvərlik Komissiyasının sədridir. Yubileyi ərəfəsində onunla görüşüb, həyat və fəaliyyət yolu, hərbi vətənpərvərlik mövzusuna, ümumən həyata və sənətə baxışı barədə söhbətləşdik.***



**- Şahin bəy, sizi yubileyiniz münasibəti ilə təbrik edirik. Uşaq vaxtı bizə uzun, əlçatmaz görünən 60 yaşın biz böyüyüb o yaşa yaxınlaşdıqca, əslində, necə qısa olduğunu görürük. İndi siz həmin yaşa çatırsınız. Özünüzü necə hiss edirsiniz?**

- Çox sağ olun, təşəkkür edirəm. Əvvəla, onu deyim ki, bu yubiley yaşının elə də uzun olmadığını görsək, anlasaq da, əslində, 60 yaş insan üçün ömrün çox ciddi, sanballı mərhələsidir. Şəxsən mənim üçün bu, Allahın lütfü, Tanrı payıdır. Düzdür, hələ təzədir deyə eşidəndə diksinirəm, amma bu ömrü necə və nə qədər yaşamağından asılı olmayaraq, hər kəs istər ki, ömrünü mənalı yaşasın, layiqincə başa vursun. Əsas budur.

Bilirsən, həyata vida edəndən sonra ona hələ də yaşayacaq dəyərlər qatan insanlar var, olub, olacaq da... Çox istərdim, özümdən sonra da mahnılarım məni yaşatsın. O ki qaldı, özümü necə hiss etməyimə, əlbəttə, içimdə bir qeyri-müəyyənlik var. Yaşın diktə etdiyi, mənim qəbullanmadığım və yavaş-yavaş barışmağa məcbur olduğum məqamları çıxsaq, şükürlər olsun, özümü formada hiss edirəm.

**- Sizcə, həyatınızın hansı dövründəsiniz?**

- Yetkinlik dövrünü yaşayıram. Çünki özümə bələdəm və özümü bilirəm. Bir var, aid olduğun, bir də var, sahib olduğun. Çox vaxt biz bu yerləri səhv salırıq. Aid olduğumuz yerləri sahib olduğumuz kimi zənn edirik. Hər şey buna bağlıdır. Yerini bilərsənsə, həddini biləcəksən, həddini bilərsənsə, özünü.

**- Bu günəcən həyatla münasibətiniz necə olub? Mübahisələriniz çox olub, ya daim sülh şəraitində yola getmisiniz?**

- Həyatın resepti yoxdur. İnsan həyatı isə rəngarəngdir. Biz ömrümüzü müxtəlif emosional sarsıntılar, hiss və həyəcanlar, sevinc-kədər, ümid-qorxu içərisində yaşayırıq. Ona görə də daimi dinclik, sülh içində yaşamaq mümkünsüzdür. Ümumiyyətlə, həyat dediyimiz bu qavramın, bu anlamın başqa bir adı da var - savaş. Həyatda nə varsa, hamısı savaşdır. Yaşamaq nədir?! Ölümə meydan oxumaq... Yəni savaş! Sevmək nədir?!

Fədakarlıq... Hər şeyini qovuşmaq uğruna verdiyin, fəda etdiyin mücadilə. Yenə savaş! Misalları çox uzatmaq olar. Ömür dediyimiz bu müddət üç dövrdən ibarətdir: sandığın, inandığın və əmin olub qandığın. Gənc ikən elə bilirsən ki, sən ətrafını, səni əhatə edən nə varsa, hər şeyi dəyişə bilərsən. Bəlli yaşdan sonra anlayırsan ki, bunu bacarmayacaqsan. Düzdür, arada bəzi cəhdlər olur, görürsən yox e, bütün bu çırpıntılar əbəsdir, bax onda barışırsan, inanırsan. Sonra bütün bu prosesi anlayırsan, qanırsan ki, dəyişə bildiyin bir şey varsa, o da elə özünsən. Özünü dəyişməlisən. Özün özünlə savaşırsan. Başqa seçimin yoxdur.

**- Həkim, bəstəkar, şair, nasir... Bəs əslində daha çox kim?**

- Elə hamısı. Tez-tez biri digərini əvəzləyir, üstələyir sanki. İnsanın tək yönü, tək yolu tutması doğru gəlmir mənə. Bəlkə də yanlış yoldayam, amma mən bunu doğru bilib, bu yolu tutmuşam. Çətin yoldur, narahat yoldur, ağır məşəqqətli yoldur, amma ləzzətli yoldur. Baxın, bir qədər əvvələ qayıdaq. İstər Şərq, istərsə də Qərb mədəniyyətinə nəzər salsaq, dünya indiki kimi olmayıb. İnsanlar həm tibb ilə maraqlanırdılar, həm poeziya, musiqi, fəlsəfə, rəsmlə... Kimi rəssam, həm də loğman, kimi həkim, həm də şair-musiqiçi və s. idilər. İbn Sina, Nəsrəddin Tusi, Fransua Rable, Şiller, Çexov, Bulqakov, bizdə Abbas Səhhət, Nəriman Nərimanov, Əli bəy Hüseynzadə və başqaları... Biz bu yolu keçib gəlmişik. Bu, bir modeldir. Bunu inkar edə bilərikmi?

Düzdür, elm, texnika, incəsənət sürətlə inkişaf edir, professionallaşma prosesi qaçılmazdır. Amma özün özünə, bacardığın sahədə fəaliyyətinə sərhəd qoymağı da düzgün hesab etmirəm. Bu, XIX-XX əsrin bizə qoyduğu trayektoriyadır. Lakin dünya dediyimiz bütövdür, tamdır, geniş qavramdır. Musiqiçi Brekin bir fikri var. O deyir ki, sadəcə musiqini anlayan biri heç musiqini də düz-əməlli anlamır əslində. Bu, musiqidə sadəcə "mən yeddi not bilirəm" deməkdir. Amma musiqi böyük bir dünyadır. Əlifbası, açarı yeddi notdur. Bunlar ayrı-ayrı şeylərdir. Burda hər şey vardır: insan duyğusundan tutmuş bəşəri hisslərə - sevgi, arzu, istək, həsrət, qorxu, nigaranlıq, xəyal, xatirələrədək. Tamlıq, bütövlük deyəndə bunları nəzərdə tuturam.

**- Siz hərbi vətənpərvərlik mövzulu mahnılarınızla tanınıb sevildiniz. Bəs sonralar niyə başqa mövzulu əsərlər yaratmadınız? Axı musiqi, bəstəkarlıq gəlirli sahə kimi tanınır. Yoxsa yazdınız, digərləri kimi məşhurlaşmadı?**

- Hərbi vətənpərvərlik mövzusuna müraciət etməyim o dövrün gənci olmağımdan irəli gəldi. Mən sadəcə olaraq digər yaşıdlarım kimi bu müharibəni yaşamalı oldum. Bütün gəncliyim, arzularım, xəyallarım müharibəyə bulaşdı. İstər vətəndaş, istər həkim, istər zabit kimi məni öz içinə aldı bu müharibə. Əslində, mahnılarımda bütün yazdıqlarımın, anlatmaq istədiklərimin hər biri mənim yaşadıqlarımdır. Nəyi gördüm, onu da yazdım. İtkilərimiz çox oldu, şəhidlər verdik. Torpaqlarımız 30 ilə yaxın müddətdə işğal altında qaldı. Amma ruhumuzu işğal edə bilmədilər. Ruhumuzu diri olaraq qoruyub saxlaya bildik. Çünki bir olduq, birlik olduq. Tək vücud, tək ürək, tək yumruq olduq. Qocalı, cavanlı, qızlı, gəlinli bir xalq, bir millət olaraq bu müharibədən alnıaçıq, üzüağ çıxdıq. Amma müharibə elə lənətlənmiş şeydir ki, bu izləri, bu sağalmaz yaraları heç vaxt, heç vədə unutmaq olmur. Çünki müharibədə təkcə iştirak edənlər deyil, hamı ölür, hətta sağ qalanlar da.

"Müharibə gündəliyi" adlı köhnə bir kitab var. Onun birinci səhifəsi bu sözlərlə başlayır: "Müharibədən qayıdanlar üç qrupa bölünür: müharibəni xatirələrində daşıyanlar; bədənində daşıyanlar; müharibəni özü ilə birlikdə evinə, ailəsinə, cəmiyyətə daşıyanlar". Ona görə düşünürəm, bir xeyli müddət müharibə bizi tərk etməyəcək... O ki qaldı başqa mövzulara müraciətimə, bu yaradıcılıq elə şeydir ki, ona deyə bilməzsən ondan yazma, bundan yaz. Mövzunu da çox vaxt mən əqli olaraq seçmirəm. Öz qəlbimin istəyi ilə, öz iç sifarişim əsasında yazıram. Məsələn, bu yaxınlarda dahi Azərbaycan şairi və mütəfəkkiri böyük Nizami Gəncəvinin 880 illiyi ilə bağlı "Beş qapı" pyesim əsasında Əməkdar incəsənət xadimi, rejissor Hafiz Quliyevin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin iştirakı ilə hazırladığı musiqili tamaşanın Heydər Əliyev adına Sarayda premyerası oldu. İndi ruhumuzun paytaxtı olan Şuşamızın tarixinə dair bir pyes üzərində işləyirəm. Başqa layihələrim də var. İnşallah, yaxşı olacaq.

**- Müdafiə Nazirliyindən ayrılmanızı "düşündüm ki, artıq orada mənə ehtiyac yoxdur" deyə əsaslandırırsınız. Hər yerdə və hər şeydə beləsiniz?**

- Bəli, beləyəm. Mühiti, ətrafı dəyişərsən, dəyərin də dəyişər. Mən ən doğru həyat dərslərimi yanlış yolda olan adamlardan almışam. Görən görüb, bilən bilir. Bu gün də beləyəm. Öncə fərqi duyursan, sonra fərqi yaradırsan.

**- Vətən müharibəsi zamanı və sonrada xeyli bu mövzulu mahnılar yazıldı, məşhurlaşdı. Sizcə, necə mahnılar idi?**

- Doğrudur, yazıldı, yazılır, yazılacaq da. Əvvəla, onu deyim ki, hər musiqi əsəri ayrı ayrılıqda əməkdir, zəhmətdir, yuxusuz gecələridir. Əlbəttə ki, qiyməti xalq, dinləyici verir. O mahnı, o əsər ki nə qədər yazılmayıb və ya yazılıb təqdim olunmayıb müəllif olaraq sən onun ağasısan və söz haqqı səndədir. Elə ki, ictimaiyyətə təqdim olundu, olursan onun qulu və söz haqqı səndən çıxıb keçir dinləyicinin ixtiyarına. Bəzən də insanlar üçün müəllif elə də maraqlı tərəf olmur, müəllifin heç fərqinə də varmırlar kimdir, nəçidir, necə yazıb, nədən ilhamlanıb yazıb... Onlar üçün həmin əsərin, həmin musiqinin onlarda yaratdığı duyğular, hiss-həyəcan, təəssürat önəm daşıyır. O mahnılar ki səni duyğulandırır, qulağından ürəyinə yol tapa bilir, o mahnılar da yaşayacaq. Amma burada çox vacib bir nüans var. Orduya - əsgər və zabitlərimizə ruh verən, onları qələbəyə, zəfərə səsləyən, zamanında yazılmış mahnılarla qələbədən sonra ordumuzun gücündən, qüdrətindən, zəfərindən ilham alaraq yazılan musiqilərin təsiri, yeri və rolu həmişə fərqli olaraq qalacaq. Baxmayaraq ki, mövzu eynidir.

**- AYB-nin Hərbi Vətənpərvərlik şöbəsində işləriniz necədir?**

- Normal, öz axarında gedir. 21 nəfərlik yeni heyətimizi formalaşdırdıq. Əvvəlkindən fərqli olaraq iki millət vəkili, bir neçə elmlər doktoru və professorlardan ibarət yeni üzvlərimiz var. Digər üzvlər də elə seçilib ki, komissiyanın fəaliyyətini cəmiyyətin bütün təbəqələri ilə uzlaşdıra və əlaqələndirə bilsin. Yəni güc nazirlikləri başda olmaqla, sosial müdafiə, təhsil nazirlikləri, KİV, radio-televiziya sahələrində ən azından bir nümayəndəmiz vasitəsi ilə təmaslarımız qurulacaq. Bundan əlavə, təzə heyətdə gənclərin təmsil olunmasına da xüsusi diqqət ayırmışıq. Bunlardan iki üzvümüz 44 günlük Vətən müharibəsinin yazar qaziləridir. Dörd qadın həmkarımız bizimlə birgə fəaliyyət göstərəcək. Yay tətilindən sonra ilk toplantımız olacaq, fəaliyyət istiqamətini, görəcəyimiz işləri müəyyənləşdirəcəyik.

**- Bir neçə il qabaq uşaqlardan ibarət qrup yaratmışdınız. Necə oldu o qrupun aqibəti?**

- Bəli, "Cənab Leytenant" patriot qrupu idi. Uşaqlarımız böyüdükcə qayğılarımız artdı, bir çox çətinliklərlə üzləşdik. Həm onların dərsləri, hazırlıqları imkan vermədi, həm də bizim maliyyə resurslarımız tükəndi. Ona görə ayrılmalı olduq. Nə etmək olar. Yolları açıq olsun. Mən onların uğurlu gələcəyinə inanıram.

**- Şeir yazmaq və insanları müayinə etmək... Oxşar və fərqli cəhətləri nələrdir?**

- İnsanlıq tarixində elə sənət növləri var ki, elmdən, bilikdən qat-qat qədimdir və onlardan əvvəl yaranıb. Şeir də bunların ən qədimi, ən ilkidir. Çünki şeirin insana ən yaxın olması ilə bərabər, onun qəlbin dərinliyinə qədər nüfuz etmə imkanları var. Həkimlik də belədir. Qədim bir el sözündə deyilir: "Günəş girməyən yerə həkim girər". Şeir sözün sənətə çevrilmiş şəklidir və sözdən sənət yaradan adamlara şairlər deyilir. Digər tərəfdən də zaman-zaman həkimlərin şəfa verən sözü dava-dərmanı əvəz etmişdir. İki əzabı var insanın: cismani və mənəvi. Cismani əzabı təbabətə - həkimlərə, mənəvi əzabı incəsənətə - şairlərə həvalədir, əmanətdir.

**Şahanə MÜŞFİQ**